


# Qəhrəmanlığı ilə nümunə oldu

**Faşist siyasətinə uyğun olaraq Ermənistanın təcavüzkar hərəkətlərini ağlı kəsəndən eşidən və işğal edilən torpaqlarımızda düşmənin vandal hərəkətlərini görən Kənan İsrafilov zaman-zaman bu dərdi ürəkağrısı ilə yaşayıb. Əzəli torpaqlarımızda düşmənin yurd yerlərimizi dağıtmasını heç cür qəbul edə bilmirdi. Bu səbəbdən də babası İsmət kişinin fikirlərini diqqətilə dinləyərək öz-özlüyündə təhlil edərdi. Ağsaqqal və ağbirçəklərin də münasibətini öyrənərdi. Bu səbəbdən də uşaq vaxtından mərd böyüməyi və düşmənə tutarlı zərbə endirməyi düşünərdi. Beləliklə də uşaqlıq vaxtından qorxu bilmədən mərd böyüyən Kənan deyirdi ki, mən düşməndən qisas almağa hazır olmaq üçün hərbçi olmaq istəyirəm. Beləliklə də o, hərbçi oldu.**

1990-cı il noyabrın 8-də anadan olduğu Şəki rayonunun Şirinbulaq kənd məktəbində səkkizillik təhsildən sonra uzun illər boyu arzusunda olduğu Cəmşid Naxçıvanski adına Ali Hərbi Məktəbinə daxil oldu. İki il əla qiymətlərlə və nümunəvi davranışla oxuduqdan sonra təhsilini davam etdirdi. Qəbul imtahanlarından uğurla keçdiyindən 2008-2012-ci illərdə Azərbaycan Ali Hərbi Məktəbində oxudu. Ali Hərbi Məktəbdən sonra da təhsilini davam etdirmək qərarına gəldi. Beləliklə də Vətəninə və dövlətinə bir hərbçi kimi xidmət etmək üçün hərb sənətinin incəliklərinə mükəmməl yiyələnmək məqsədilə Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində oxumaqla uşaqlıq arzusunu - peşəkar zabit olmaq istəyini reallaşdırmaq üçün çalışdı.

Kənan İsrafilov yüksək təhsili, bacarığı, rəşadəti və vətənpərvərliyi ilə peşəkar hərbçi oldu. Ali Hərbi Məktəbi bitirdikdən sonra - 2013-cü ildə həqiqi hərbi xidmətə Murovdağ istiqamətindəki "N" saylı hərbi hissədə tabor komandiri vəzifəsində başladı. Bununla da uşaqlıq arzusunu reallaşdırdığı üçün yüksək rütbəli hərbçi olaraq vətənə və xalqa əvəzsiz xidmətləri ilə daim töhfə verməyə çalışdı. Komandanlığın hər bir tapşırığına layiqincə əməl etməyi ona daim uğur qazandırırdı.

İşğal altında olan torpaqlarımızın azad olunması üçün sentyabrın 27-də əks-hücumla başlayan döyüşlərdə sinəsini vətənə atılan düşmən güllәsinə sipər edən hər bir igid oğul kimi Kənan da qəhrəmanlığı ilə seçildi.

Yüksək döyüş rəşadəti ilə seçilən kapitan Kənan İsrafilovun rəhbərlik etdiyi tabor qısa vaxt ərzində düşmənin 11 strateji yüksəkliyini ələ keçirməklə xeyli hərbçisini məhv edib. Onun komandir olduğu tabor ermənilərin bir neçə postunu ələ keçirmişdi. Onlar hər gecə düşmənin bir neçə postunu alırmışlar. Özü də bu ərazilərdə 1994-cü ilin qışında keçirilən "Murov əməliyyatları"nda ordumuz xeyli itkilər vermişdi. Bu səbəbdən də Kənan "Murov qartalı" adı ilə tanınırdı.



Füzulinin, Cəbrayılın və Suqovuşanın azad edilməsi üçün döyüş tapşırığını layiqincə yerinə yetirən kapitan Kənan İsrafilov 5 oktyabr 2020-ci ildə Suqovuşan istiqamətində gedən gərgin döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Kənan İsrafilov "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi", 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medallarına layiq görülüb. Prezident İlham Əliyevin sərəncamları ilə ölümündən sonra isə III dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.



Ailənin tək oğlu və bir bacının tək qardaşı olan kapitan Kənan İsrafilov ailəli idi. Yeganə qızı Aysu indi 6 yaşındadır.

Babası İsmət İsrafilov, əmisi Nəsimi kişi və əzizi Bayram Məmmədov kimi Kənanı yaxından tanıyan hər kəs onun rəşadətini daim yüksək dəyərləndirir və qəhrəmanlığından qürur duyur. Ağır döyüşlərdə birgə iştirak etdiyi əsgər yoldaşlarından olan 3-cü dərəcəli müharibə əlili İmran Rəcəbov deyir ki, Kənan yüksək insani keyfiyyətləri ilə seçildiyindən komandiri olduğu bütün əsgərlər arasında son dərəcə böyük hörmət və yüksək rəğbət qazanmışdı. Çünki o, hər zaman döyüşə birincilər sırasında gedərək daim öndə olurdu. Onun bu igidliyi şəxsi heyətin döyüş ruhunu və qələbə əzmini daim yüksəldirdi.

Anası Məlahət xanım, həyat yoldaşı Fərqiyyə, bacısı Aydan kimi, 6 yaşlı qızı Aysu da igid kapitan şəhidimiz Kənan İsrafilovun qəhrəmanlığını hamı kimi qəlbində yaşadır. Aysu isə kəndə daxil olan kimi yol kənarında olan dükandan bir vaxtlar atasının onun üçün şirniyyat aldığı anı xatırlayaraq qəhrəman övladı olduğu ilə əbədi fəxr edəcək.

Qəhrəman igidlərimizdən olan Kənan İsrafilovun həyat yolu kimi Şəki rayonunun Şirinbulaq kənd qəbiristanlığında olan məzarı igidlik simvoluna çevrildiyindən mütəmadi ziyarət edilir.

**Mikayıl NƏRİMANOĞLU,**
**"Respublika".**